ədalət.- 2021.- 20 aprel.- S.7.

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 42 (2223) 20 aprel 2021-ci il

# BOZ DAĞA SÖYKƏNƏN ŞƏHƏR

**Yəqin ki, yazının başlığındakı yer adı, yəni Bozdağ özü-özlüyündə artıq təqdimat etdi. Böyük Səməd Vurğunun poeziyamıza gətirdiyi Bozdağın qoynundakı şəhəri də yəqin ki, tanıdınız. Elə həmin tanışlığa istinad edərək bu gün işıqlı bir şəhərimiz haqqında düşüncələrimi bilgisayara diqtə edirəm.**

Bəlli olduğu kimi, Azərbaycan prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət sahəsində ölkəmizin həm regionda, həm də dünya çapında nüfuzu hər gün artmaqda, yüksəlməkdədi. Bu mənada ölkə başçısının Sərəncamı ilə təsdiq olunmuş Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq bu gün bütün ölkə ərazisində həm yenidənqurma, təmir, abadlıq, həm də iqtisadi inkişaf üçün geniş meydan açılıb. Demək olar ki, bu gün Azərbaycanın hər guşəsində inkişafın göstəricisi olan yeniliklərin, quruculuğun şahidi olmaq mümkündür. Ona görə də üz tutduğumuz Mingəçevir şəhərində qarşılaşdığımız mənzərələr bizi o qədər də təəccübləndirmədi. Çünki bu şəhərdə də görüləsi, zəruri və vacib olan işlər planlı şəkildə həyata keçirilməkdədi.

Xatırlatmaq istərdim ki, Mingəçevir Azərbaycanın sayca 4-cü şəhəri olmaqla, həm də sənaye mərkəzi kimi tanınır. Bu şəhərin 130 kvadrat kilometr ərazisində 2020-ci ildə keçirilmiş siyahıya almaya görə, 107 min nəfərə yaxın sakin yaşayır. Bu insanların da əsas işi təbii ki, şəhər sakini olaraq maşınqayırma, elektrotexnika, yüngül və yeyinti sənaye sahələrində çalışmaqdır. Məlum statistikaya görə, hal-hazırda Mingəçevirdə böyük elektrik stansiyası ilə yanaşı, həm də 40-a yaxın sənaye müəssisəsi fəaliyyət göstərir. Bütövlükdə bu şəhərdə həm də dövlət universiteti, kollec, peşə məktəbləri də var ki, bu da şəhərin ümumi inkişaf mənzərəsində müəyyən məqamların göstəricisidir. Yəni həmin bu müəssisə və təhsil obyektlərinin mövcudluğu şəhərin həm mənzərəsinə, həm də onun inkişafına öz təsirini göstərir. Əgər ötən ilə nəzər salsaq, onda görərik ki, Mingəçevirdə kifayət qədər küçə və meydanların yenidən qurulması, təmiri, abadlaşdırılması sahəsində işləri görülübdü. Xüsusilə Mingəçevir şəhərinin mənzərəsində, yeni cəlbedici görünməsində yeri olan "Dostluq" parkının genişləndirilib abadlaşdırılması işi başa çatdırılmışdı ki, bu sakinlərin ürəyində olan bir problemin aradan qaldırılması deməkdi.




***Bu gün Mingəçevir şəhərindəki "Dövlət rəmzləri" muzeyi, "Nəsimi", "İncilli" parkları, eləcə də Nizami küçəsində yeni parkın salınması hər bir sakini, həm də Mingəçevirə qonaq gələn hər kəsin üz tutduğu yerlərdi. Artıq təbiətin də insanların üzünə güldüyü bu günlərdə koronavirus pandemiyasından qorunmaq qaydalarına əməl etməklə bu parklara üz tutanların sayı artır. Bir məqamı da xatırlatmaq yerinə düşər ki, Mingəçevir şəhər rəhbərliyinin Regionların İnkişafına Dair Dövlət Proqramının tələblərinə uyğun olaraq şəhər üçün hazırladıqları inkişaf planı da icra edilərkən yenilənməni, yəni zamanı, müasirliyi diqqətdə saxlayırlar. Xüsusilə bu iş tikinti sahəsində özünü büruzə verir. Abadlıq işlərini yerinə yetirən təşkilatlar bu gənc şəhərə elə elementlər əlavə edirlər ki, o da dərhal diqqəti çəkir. Hiss olunur ki, görülən işlərə həm məsuliyyətlə yanaşılır, həm də bu işlərə güclü nəzarət edilir. Ona görə də "Mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası və konservasiyası sahəsində işlərin davam etdirilməsi" planı gerçəkləşdikcə sakinlərin də, qonaqların da zövqünü oxşayır.***

Bu gün Mingəçevir şəhərində təhsilə artan diqqətin bir göstəricisi də xeyli sayda məktəb binalarının yüksək səviyyədə təmir edilməsi, yeni inventarlarla təmin olunmasıdır. Demək olar ki, şəhərin 13, 16 saylı məktəblərdə təmir-bərpa işləri yüksək keyfiyyətlə başa çatdırımış, 12 saylı tam orta məktəbdə, həmçinin inteqrasiya təlimli internat tipli gimnaziyada əsaslı təmir işləri aparılmışdı. Şəhərdə kimya sexi, hava kompressor stansiyası, 330 kilo voltluq qapalı stansiya, azot sexi istifadəyə verilmişdir. Ümumiyyətlə, Mingəçevirdə görülən işlər arasında Energetiklər qəsəbəsində də nümunəvi məhəllənin istifadəyə verilməsi, park salınması və xüsusilə bu qəsəbədə yaşıllığa böyük diqqət göstərilməsi aran ərazisi sayılan şəhərin mənzərəsinə xüsusi gözəllik qatır.

Bu gün Mingəçevirdə bütün dünyada olduğu kimi, pandemiyanın "at oynatması" adamların əhval-ruhiyyəsinə ciddi təsir göstərir. Amma buna baxmayaraq, şəhər öz normal həyatını yaşayır və adamlar da xüsusi qaydalara əməl etməklə, öz gündəlik işləri ilə məşğuldular. Bu mənada şəhərdə aparılan abadlıq, quruculuq işləri bir an da olsun səngimir. Demək olar ki, şəhərin hər bir guşəsində, meydanında yaşıllığa rast gəlmək, yeni salınan səkilərin üzəri ilə addımlamaq mümkündür.

Bu gün Mingəçevirdə qeyri-dövlət sektorunda çalışanların da fəaliyyəti diqqət mərkəzindədi. Əgər rəqəmlərə istinad etsək onda görərik ki, ötən ilin yekunlarına görə, istehsal olunmuş 269,3 milyon manatlıq məhsulun 25 milyon manatlığı qeyri-dövlət sektorunun payına düşür. Deməli, bu sahənin də şəhərin ümumi məhsul istehsalında öz çəkisi, öz yeri var.

Ölkəmizin digər şəhərləri kimi, Mingəçevirdə də işıq, qaz, su, rabitə sahəsində də xeyli işlər görülüb və həmin işlər bu gün də davam etdirilir. Müasir texniki avadanlıqlardan istifadə edilməklə rabitənin təşkil olunması şəhərdə həm Mingəçevirin daxili əlaqələrində, həm də onun hüdudlarından kənara çıxışda öz müsbət nəticəsini göstərməkdədi. Yəni həm şəhər rəhbərliyi, həm də respublika səviyyəli təşkilatların görülən işlərə verdiyi təkan və tələbkarlığın nəticəsidir ki, Mingəçevirdə rabitə sahəsində əksər problemlər aradan qaldırılıbdı. Şəhərdə qaz və su təminatı sahəsində də görülən işlər təqdirəlayiq olmaqla yanaşı, eyni zamanda, yeni layihələrin reallaşmasına şərait yaradır. Demək olar ki, Mingəçevir sakinləri qaz, su məsələləri ilə bağlı aidiyyəti qurumların fəaliyyətini artıq təqdir etməkdədilər. Bu da o deməkdi ki, şəhər rəhbərliyi ölkə prezidentinin tapşırığının icrasına çox böyük məsuliyyətlə yanaşır.




**Bu gün Azərbaycan prezidentinin bütün rəhbər işçilərdən, mənurlardan bir tələbi var. O da hər kəsin vəzifəsinə məsuliyyətlə yanaşması, xalqın xidmətində vicdanla dayanmasıdı. Bu da o deməkdir ki, hər bir regionun, rayonun, şəhərin, qəsəbənin rəhbəri tutduğu qəsəbənin böyük və kiçik olmasında asılı olamayaraq, öz üzərinə düşən işin məsuliyyətini dərk edib, həmin işdə vicdanla çalışmalıdı. Bax, bu da regionlarımızın inkişafında diqqəti çəkən şərtlərdən biridir. Yəni birmənalı olaraq, yerində olan, rəhbərlik etməyi bacaran, həm də yeniliyi görən və təqdir edən bacarıqlı rəhbər işçi hər zaman fəaliyyəti ilə önə çıxır, öndə olur. Düşünürük ki, bu gün Mingəçevir şəhərinə də rəhbərik edənlər Azərbaycan prezidenti cənab İlham Əliyevin bu tələbindən xəbərdardılar. Elə ona görə də şəhərdə tikinti, abadlıq uğurla davam etdirlir, şəhərin inkişaf perespektivləri getdikcə artır.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ